

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 144 (23.786)

*11 avqust 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## R.H.Bağırovun "Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxsin sədri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rasim Hüseynbala oğlu Bağırov "Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxsin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 avqust 2021-ci il*

## Ə.R.Quliyevin "Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxsin sədri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əli Rüstəm oğlu Quliyev "Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxsin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 avqust 2021-ci il*

***Muxtar respublikada qışa ciddi hazırlaşmaq, payız-qış mövsümündə əhalinin tələbatını tam ödəmək üçün görülən tədbirlərin sırasında əhalini təzə meyvə-tərəvəzlə təmin etməyə imkan verən soyuducu anbarların gücündən tam istifadə olunması, bazarda bolluq yaradılması xüsusi yer tutur. Eyni zamanda bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir.***

## Muxtar respublika əhalisi ilin bütün fəsillərində keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin olunur



Kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində aparılmış məqsədyönlü tədbirlər nəticəsində ötən il soyuducu anbarlara 7256 ton kartof, 379 ton soğan, 379 ton kələm, 536 ton alma, 150 ton üzüm olmaqla, 8700 ton meyvə-tərəvəz məhsulları tədarük olunmuşdur. Ötən tədarük dövrü ərzində İqtisadiyyat Nazirliyinin təsisçisi olduğu "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 1111 ton kartof, 287 ton soğan, 19 ton alma məhsulları nağd alınaraq tədarük olunmuşdur.

Cari ilin ötən dövrü ərzində də bu istiqamətdə tədbirlər davam etdirilmiş, iyulun 15-dən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə meyvə-tərəvəz məhsullarının tədarükü,





saxlanılması və satışı üzrə soyuducu anbarlara məhsul qəbuluna başlanılmışdır. Tədarük dövrü başlayandan bu günə kimi soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq istehsal edilmiş 4684 tondan artıq kartof məhsulu tədarük olunmuşdur ki, bunun da 518 tondan artığı "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin payına düşmüşdür. Cəmiyyət tərəfindən meyvə və tərəvəz məhsullarının nağd alınaraq tədarük olunması istehsalçıların fəaliyyətini stimullaşdırması ilə yanaşı, əkin sahələrinin genişləndirilməsi baxımından da böyük əhəmiyyəti var. Hazırda muxtar respublikada ümumi tutumu 21 min 150 ton olan 49 soyuducu anbar fəaliyyət göstərir.

Dövlət maliyyə yardımına innovasiya dəstəyinin də əlavə olunması meyvə-tərəvəzçilik sahəsində müasir dövrün tələblərinə uyğun yeni təsərrüfatların yaranması ilə nəticələnir. Bunlardan ən çox diqqət çəlb edəni isə istixana təsərrüfatlarıdır. Bu sahəyə göstərilən diqqətin nəticəsində muxtar respublikada 150 min 817 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 34 istixana təsərrüfatı fəaliyyət göstərir. Cari ilin ötən dövrü ərzində istixana komplekslərində istehsal olunan 730 tondan artıq tərəvəz məhsulları istehlak bazarının davamlı təchizatını təmin etmişdir.

Həmçinin soyuducu anbarlara tədarük olunan məhsulların keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğuna nəzarət nazirliyin tabeliyində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən həyata keçirilir. Bu məqsədlə laboratoriya tərəfindən soyuducu anbarlara tədarük olunan meyvə-tərəvəz məhsullarından 38 halda nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilmiş, onların normativ texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilmişdir.

Bütün bu tədbirlər, ilk növbədə, daxili bazarın qorunmasına, idxaldan asılılığın azaldılmasına, istehlakçıların yerli məhsullara olan tələbatının ödənilməsinə, ən önəmlisi isə kənd təsərrüfatının inkişafına təkan verir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Enerji sistemi daha da müasirləşdirilir

Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində 5 meqavat gücündə Şərur Günəş Elektrik Stansiyasının və Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının, 15,6 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Enerji sistemini daha da müasirləşdirmək məqsədilə Şərur rayonunun Maxta kəndində 35/10 kilovoltluq transformator yarımstansiyasının, Şərur şəhərində yüksəkgərginlikli elektrik xətti üçün tunelin tikintisi başa çatdırılmış, Muğanlı kəndində 35/10 kilovoltluq transformator yarımstansiyasının tikintisi davam etdirilmişdir.

Muxtar respublikada 31,3 kilometr uzunluğunda 35, 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, ümumilikdə, 8 transformator yarımstansiyası quraşdırılmışdır.

Şərur rayonu ərazisində yanacaqdoldurma stansiyasının yenidən qurulması başa çatdırılmış, Naxçıvan şəhərində Qaz Kompressor Stansiyası tikilmişdir. 1 iyul 2021-ci il tarixə muxtar respublikada 89 min 54 əhali abonenti təbii qazla təmin olunmuşdur.

Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz, Babək rayonunda və Şərur şəhərində smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilir.

**Xəbərlər şöbəsi**

## Məşğələlər davam edir

***Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun tank və mexanikləşdirilmiş birləşmələri yeni tədris dövrünə aktiv məşğələlərlə başlayıb. Şəxsi heyətin döyüş meydanında hədəfləri ilk atəşlə məhv etmək vərdişlərinin təkmilləşdirildiyi məşğələlər davam edir.***



Əlahiddə Ümumqoşun Ordunun birləşmələrindəki Təlim-Tədris mərkəzlərində mövcud olan müxtəlif məşq qurğularında şəxsi heyətin mərmi və yanacaq sərf etmədən qazandığı bacarıqlar səhra şəraitində təşkil olunan məşğələlərdə yerinə yetirilən tapşırıqların icra vəziyyəti ilə qiymətləndirilir.

Məşğələlərdə əsas diqqət zirehli texnikaların ekipajlarına 44 günlük Vətən müharibəsində döyüş sahəsində qazanılmış təcrübənin mənimsədilməsinə yönəldilib.

Hazırda təlim mərkəzlərində heyətlərin döyüş əməliyyatları zamanı tankları, piyadaların döyüş maşınlarını və zirehli transportyorları idarəetmə vərdişləri təkmilləşdirilir, zirehli texnikanın ərazidə təbii və süni maneələri dəf etməklə sürülməsi icra edilir, müxtəlif manevrlər və atışlar həyata keçirilir.

**Nəriman NƏCƏFOV**

*Muxtar respublikanın yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.*

## Təbii qazla təminat diqqətdə saxlanılır



İyul ayında muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən "Naxçıvanqaz Servis" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 89 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 87-si əhali və 2-si qeyri-əhali abonentdir.

Hesabat ayında Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinin "104" nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə 886 çağırış daxil olmuşdur. Qaz şəbəkəsində 675 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq bu sızmalar aradan qaldırılmışdır. Muxtar respublikada yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilmişdir.

Ay ərzində yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Naxçıvanın sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi yeri var

***Xalqımızın ümummilli lideri Heydər Əliyev yolunun uğurla davam etdirildiyi doğma diyarımız Naxçıvan işğalçı Ermənistanın hərbi təcavüzü nəticəsində ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum edilməsinə baxmayaraq, ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq prosesində həmişə fəal iştirak edib. Bunun nəticəsidir ki, iqtisadi inkişafın və sosial tərəqqinin təmin olunmasında mühüm rol oynayan nəqliyyat sektoru da hərtərəfli qayğı ilə əhatə olunub, məqsədyönlü tədbirlər həyata keçirilib, müasir avtomobil yolları salınıb, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılıb. Diyarımızda ən perspektivli sahələrdən biri sayılan nəqliyyatın vəziyyəti barədə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin əməkdaşı Saleh Həsənovla həmsöhbət olduq:***

*– Saleh müəllim, istərdik ki, əvvəlcə Naxçıvanda nəqliyyat sahəsinin dünəninə nəzər salaq. Nəqliyyat blokadası hansı çətinlikləri yaradırdı?*

– Nəqliyyat dövlətin və cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə nail olmaq üçün mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, nəqliyyat infrastrukturunun da inkişafı dövlətin əsas məsələlərindən biri olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində – Azərbaycan öz tarixinin çətin günlərini yaşadığı bir dövrdə ermənilər tərəfindən blokadaya alınmış Naxçıvanda vəziyyət daha da ağır idi. Yolların bağlanması, kommunikasiya əlaqələrinin kəsilməsi, muxtar respublikanın nəqliyyat əlaqələri baxımından





Azərbaycanın əsas hissəsindən təcrid olunması bir sıra ciddi problemləri meydana çıxarmışdı. Təmin olunmuş sosial-iqtisadi fəallıq fonunda yenidən qurulmuş və ya fəaliyyəti bərpa edilmiş təsərrüfat subyektlərinin istehsal etdikləri tələbatdan artıq məhsulların digər regionlara göndərilməsi və gündəlik sərnişindaşıma xidmətləri əsasında muxtar respublikanın digər şəhər və regionlarına gediş-gəlişin məhdudluğu məhz bununla bağlı idi. Lakin qeyd olunan çətinliklərin təsirini azaltmaq məqsədilə yük və sərnişin daşınmasında tətbiq olunan tariflərin minimum həddə saxlanılması nəqliyyat blokadasının mənfi təsirini müəyyən dərəcədə yumşaltmağa imkan yaratmışdı. Muxtar respublikada nəqliyyat sisteminin ahəngdar işinin bərpası, eləcə də qonşu ölkələrin ərazisinə gediş-gəlişin asanlaşdırılması və tranzit istifadə imkanlarının genişləndirilməsi istiqamətində atılan addımlar bu istiqamətdə əhəmiyyətli dönüşə səbəb olub. Ötən dövr ərzində blokada vəziyyəti ilə bağlı çətinlikləri aradan qaldırmaq məqsədilə Türkiyə və İran İslam Respublikasının şirkətləri ilə müqavilələr bağlanmışdır. Müqavilələrə uyğun olaraq Türkiyə Respublikasının əksər şəhərlərinə, İran İslam Respublikasının Təbriz, Tehran, Urmiya və Mahabad şəhərlərinə sərnişindaşıma xidməti göstərilmişdir. Bundan əlavə, 2007-ci ildən Naxçıvan-Bakı-Naxçıvan müntəzəm avtobus marşrutlarının fəaliyyətə başlaması blokadanın yarılması ilə yanaşı, nəqliyyat əlaqələrinin genişlənməsində mühüm əhəmiyyət daşıyır.

*– Naxçıvanda nəqliyyatın inkişafı hansı dövrləri əhatə edir?*

– Naxçıvanın əlverişli geostrateji mövqeyi, Böyük İpək Yolunun üzərində yerləşməsi, həmçinin zəngin ticarət və sənətkarlıq mərkəzi olması qədim zamanlardan sərnişin və yükdaşıma nəqliyyatının təşəkkülünə səbəb olub, bu xidmət növü əsrdən-əsrə formalaşıb. Naxçıvanda sərnişin və yükdaşımaların tarixi nə qədər qədim olsa da, onun dövlət səviyyəsində idarə olunması, avtomobil nəqliyyatının mərkəzləşdirilmiş qaydada fəaliyyəti ötən əsrin iyirminci illərindən başlanıb, avtomobil nəqliyyatı ilə əlaqədar olan ilk təşkilat 18 yanvar 1924-cü ildə Naxçıvan Xalq Kommunal Komissarlığının tərkibində Avtonəqliyyat şöbəsi fəaliyyətə başlayıb. Arxiv sənədlərinə əsasən deyə bilərəm ki, 1938-ci ildə Naxçıvan Kommunal Təsərrüfat Şöbəsinin balansında 3 avtobus, 2 taksi, 8 yükdaşıyan avtomobil, Ordubad rayon şöbəsində 4, Culfa rayon şöbəsində isə cəmi 1 avtomobil olub.

Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da avtomobil nəqliyyatının inkişafının ən parlaq dövrü ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri əhatə edir. 1969-cu ildə respublika rəhbərliyinə gələn ulu öndərin şəxsi təşəbbüsü sayəsində bütün sahələrdə olduğu kimi, avtomobil nəqliyyatı sahəsində də əsaslı dəyişikliklərə və köklü inkişafa təkan verildi. Ümummilli lider siyasi rəhbərlikdə olduğu illərdə Naxçıvanda avtomobil nəqliyyatının inkişafını daim diqqət mərkəzində saxlamışdır. Belə ki, 1969-1982-ci illərdə Naxçıvanda avtomobil nəqliyyatı ilə əlaqədar mühüm tədbirlər həyata keçirilmiş, bu sahənin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, rayon mərkəzlərində və Naxçıvan şəhərində avtovağzallar tikilərək istifadəyə verilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyən etdiyi dövlət nəqliyyat siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyevin ardıcıl inkişaf siyasətinə uyğun olaraq yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli liderimizin siyasi kursunu layiqincə davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi altında muxtar respublikanın sürətli tərəqqisi, əldə olunan davamlı sabitlik və yüksəliş iqtisadiyyatın bütün sahələrində olduğu kimi, nəqliyyat sahəsinin də inkişafı üçün böyük imkanlar yaradıb. Ötən dövr ərzində muxtar respublikada nəqliyyat xidmətinin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müxtəlif illərdə təsdiq edilmiş müvafiq fərmanları ilə Naxçıvan Muxtar Respublikası Avtonəqliyyat Dövlət Konserni, Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi yaradılıb. Ali Məclis Sədrinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə muxtar respublikada avtomobil nəqliyyatı sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin bazası əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti yaradılıb, strukturu təsdiq edilib. Belə ki, xidmət muxtar respublikada avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında və bu sahədə normativ-hüquqi tənzimləmənin həyata keçirilməsində iştirak edir, sərnişin və yükdaşımalarını yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, habelə müvafiq qanunvericiliyə riayət olunmasına nəzarət edir. Bununla yanaşı, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşımalarının təşkilini və bu sahədə dövlət sifarişinin formalaşdırılmasını təmin edir, daşımaların vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görür.

*– Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində hansı tədbirlər həyata keçirib?*

– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə son illərdə muxtar respublikada sərnişindaşıma xidmətinin səviyyəsini yaxşılaşdırmaq üçün həyata keçirilən tədbirlərin miqyası ölçüyəgəlməzdir. Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq tədbirləri avtovağzalları da əhatə edib. Ötən dövrdə Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal kompleksləri tikilərək və ya əsaslı təmir olunaraq sərnişinlərin istifadəsinə verilib. Bunun da nəticəsində nəqliyyat sisteminin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər insanların rahatlığının təmin edilməsinə əlverişli zəmin yaradıb, muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilib, fəaliyyətdə olan 136 marşrut xəttində 313 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilib. Naxçıvan şəhəri üzrə əhaliyə nümunəvi sərnişindaşıma xidmətinin göstərilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib, 2013-cü ildə Naxçıvan şəhərində müasir tələblərə cavab verən Avtobus Parkı istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə müxtəlif dövrlərdə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq şəhərdaxili və şəhərlərarası nəqliyyatda işləyən avtobusların daha müasir, beynəlxalq standartlara cavab verən avtobuslarla əvəz olunması işi davam etdirilib. Hazırda Avtobus Parkında 74-ü avtobus, 23-ü isə taksi minik avtomobili olmaqla, ümumilikdə, 97 avtonəqliyyat vasitəsi vardır ki, onlar da muxtar respublika sakinlərinə nümunəvi sərnişindaşıma xidməti göstərir.

*– Saleh müəllim, bəs nəqliyyatın inkişafını zəruri edən amillər hansılardır?*

– Muxtar respublikanın sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi yeri var. Bu sektor məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı sahəsində fəaliyyət növlərini əhatə edir. Nəqliyyat yalnız sərnişin və yükdaşımaları həyata keçirmir, eyni zamanda əhalinin məskunlaşmasında, ərazi üzrə optimal yerləşdirilməsində mühüm rol oynayır. Ölkələr yerləşdikləri coğrafi mövqedən asılı olmayaraq, çalışırlar ki, öz məhsullarını daha sərfəli yollarla dünya bazarlarına çıxarsınlar və daha çox səmərə əldə etsinlər. Məhz bu baxımdan beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən muxtar respublikanın əlverişli nəqliyyat sisteminə malik olması qonşu ölkələrlə qarşılıqlı səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə münbit şərait yaradır. Məlumdur ki, nəqliyyat vasitələri olmadan yollar əhəmiyyətsiz olur, yollar keyfiyyətsiz olduqda isə nəqliyyat vasitələrinin səmərəli



istismarı qeyri-mümkündür. Başqa sözlə desək, nəqliyyat sisteminin və onun mühüm infrastrukturlarından biri olan yolların vəziyyətini yaxşılaşdırmadan arzuedilən inkişafa nail olmaq mümkün deyil. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqəti nəticəsində muxtar respublikada nəzərdə tutulan bütün infrastruktur layihələr, Dövlət proqramları yüksək səviyyədə icra olunur. Sosial infrastrukturun mühüm sahələrindən sayılan yol təsərrüfatının yenidən qurulması, yeni yolların salınması, mövcud yolların isə əsaslı şəkildə təmiri ilə bağlı layihələr uğurla davam etdirilir. Bu layihələr sırasında xüsusi əhəmiyyətə malik olan Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, Culfa-Ordubad, eləcə də Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yollarının qurulması əhalinin sosial şəraitinin yaxşılaşdırılması ilə yanaşı, Naxçıvanın tranzit imkanlarını xeyli artırıb.

Xatırladım ki, Culfa-Ordubad magistral yolunun inşası Prezident cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" və "Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən inşa olunub. Ölkə Prezidenti cənab İlham Əliyev mayın 10-da Culfa-Ordubad magistral avtomobil yolunun açılışında iştirak edib.

*– Muxtar respublikanın nəqliyyat sahəsinə hansı yeniləmələr, müasir texnologiyalar tətbiq edilib?*

– Muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində avtonəqliyyat sisteminin



mütərəqqi və innovativ texnologiyalara əsaslanaraq inkişaf etdirilməsi istiqamətində müvafiq işlər həyata keçirilib. Belə ki, ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən taksi ilə günün tələbləri səviyyəsində nümunəvi sərnişindaşıma xidməti təşkil etmək məqsədilə "Elektron taksi xidməti" yaradılıb. Şəhərdaxili və beynəlxalq marşrutda fəaliyyət göstərən avtomobillərin iş qrafikinə və təhlükəsizliyinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyası olan "Naxtel" 4G GPS monitorinq izləmə sistemi quraşdırılmış, taksi minik avtomobillərinə bu sistemin quraşdırılması işi davam etdirilməkdədir. Eyni zamanda Türkiyə və İranın böyük şəhərlərinə, həmçinin Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutları üzrə fəaliyyət göstərən avtobuslara bilet satışının onlayn qaydada həyata keçirilməsi istiqamətində işlər görülməkdədir. Muxtar respublikanın nəqliyyat sektorunda əldə edilmiş nailiyyətlərin daha da genişləndirilməsi və irimiqyaslı layihələrin reallaşması istiqamətində aparılan işlərin davam etdirilməsi Dövlət Nəqliyyat Xidmətinin qarşısında duran əsas vəzifələrdəndir və bu istiqamətdə görülən işlərin məqsədyönlü şəkildə həyata keçirilməsi bütünlükdə nəqliyyat xidmətinin inkişafına öz töhfəsini verəcəkdir.

*– Müsahibə üçün sağ olun.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## 622 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb

*Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan istifadəyə nəzarət 2021-ci ilin iyul ayında da Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.*

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar olaraq Naxçıvan şəhəri ərazisində 115,81 hektar meyvə bağı və 209,88 hektar meşə zolağı, Babək rayonu ərazisində 741,47 hektar meyvə bağı və 426,90 hektar meşə zolağı plana alınaraq xəritələşdirilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”na uyğun olaraq Şərur rayonunun Məmmədsabir kəndində və Kəngərli rayonunun Qıvraq qəsəbəsində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin, o cümlədən ailə təsərrüfatı nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Muğancıq-Müslüm və Muğancıq-Mehrab kəndlərinin ərazisində aparılan monitorinqlər başa çatdırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir. Kosacan və İbadulla kəndlərinin ərazisində monitorinqlərə başlanmışdır.

Ötən ay 622 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 384 texniki sənəd hazırlanmış, yeni yaranmış 32 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 100 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 1179 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilmişdir.

Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılmış, 8 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Xalça Azərbaycan xalqının maddi və mədəni irsinin ən dəyərli komponentlərindən biridir. Tarixboyu Azərbaycan xalçaları öz rəngarəngliyi ilə seçilmiş və xalqın milli təfəkkürünü təcəssüm etdirən bənzərsiz sənət nümunəsinə çevrilmişdir. Burada toxunan xalçalar özünəməxsus ornamentləri ilə dünya mədəniyyətini zənginləşdirmiş və müxtəlif dövrlərdə tanınmış səyyahların marağını bu qədim diyara cəlb edən vasitələrdən biri olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Xalçaçılıq sənəti bizim milli sənətimizdir, bizim qədim sənətimizdir. Azərbaycan xalçaları dünyanın ən aparıcı muzeylərində nümayiş etdirilir. Xalça bizim məişətimizin ayrılmaz hissəsidir və Azərbaycan xalçaları öz keyfiyyəti ilə seçilir. Biz elə etməliyik ki, bu sənət daim yaşasın".***



*Dövlət proqramı icra olunur*

# Xalça sənətinin inkişafı tədbirləri davam etdirilir

Naxçıvanda da uzun illər ərzində xalça sənəti sahəsində formalaşan təcrübə özünəməxsus xalçaçılıq məktəbinin yaranması ilə nəticələnmişdir. Naxçıvan xalçaçılıq məktəbi ölkəmizdə xalça sənəti sahəsində ənənələrin, bədii və texniki iş üsullarının öyrənilməsi və yaşadılmasında xüsusi rola malikdir. Xalçaçılıq sahəsində maddi-mədəni irsin qorunması və davamlı inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Proqramın icrası 2021-ci ilin ikinci rübündə də davam etdirilmiş, görülən işlər xalçaçılığın həm sənət, həm də iqtisadi baxımdan inkişafı üçün yeni imkanlar yaratmışdır.





Dövlət proqramında xalça sənəti sahəsində rəqabət qabiliyyətinin artırılması və daxili bazarın qorunması istiqamətində nəzərdə tutulan tədbirlər çərçivəsində Naxçıvan şəhərində xalça istehsalı müəssisəsinin yaradılması xüsusi yer tutur. Ötən müddətdə qeyd edilən tapşırığın icrası istiqamətində işlər başa çatdırılmışdır. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının açılışı ilə bağlı keçirilən tədbirdə iştirak etmişlər. Onu da qeyd etmək lazımdır ki, proqramın icrasından gözlənilən nəticələrdən biri xalçaçılıq sahəsində məşğulluğun artırılmasıdır. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialında 60-dan çox insanın işlə təmin olunması nəzərdə tutulan tədbirlərin uğurla davam etdirildiyini deməyə əsas verir.

Əllə toxunan xalçalar bu sahədə dəyərli sənət nümunələrinin meydana çıxması ilə yanaşı, sənətkarların bədii və texniki iş üsullarının öyrənilməsi və təbliği üçün də xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə görülən işlər Naxçıvan xalçaçılıq məktəbinə məxsus tarixi ənənələrin yaşadılaraq gələcək nəsillərə ötürülməsi baxımından böyük önəmə sahibdir. Proqramın icrasına uyğun olaraq aprel-iyun aylarında "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasında 6, Cəlilkənd buzxanası və Naxçıvan Dövlət Xalça Muzeyinin hər birində 1 xalça toxunmuşdur. Əllə xalçatoxuma sahəsində unudulmaqda olan bədii və texniki iş üsullarının bərpası və inkişaf etdirilməsi məqsədilə "Ənənəni qoruyaq, evdə xalça toxuyaq!" adlı sosial layihə çərçivəsində 2 xalçaçı qadınla müqavilə bağlanılaraq xammal və avadanlıqlar verilmiş, milli çeşnilər əsasında xalça toxunmasına başlanılmışdır.

Muxtar respublikanın ali təhsil müəssisələrində də işlər davam etdirilmiş, Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin Texnologiya mərkəzində fəaliyyət göstərən Toxuculuq kabinəsində 19 müxtəlifölçülü xalça, 6 kilim və 2 palaz nümunəsi toxunmuşdur. Bu dövrdə Naxçıvan Müəllimlər İnstitutunda xalça muzeyi yaradılmış, 1 milli ornamentli xalça toxunaraq muzeyə təhvil verilmişdir.



Toxunan xalçalarla yanaşı, bu sahədə elmi potensialın və kadr təminatının gücləndirilməsi də diqqəti cəlb edən məsələlərdəndir. Xalçaçılıq üzrə təhsil imkanlarının mövcudluğu həm bu sənətin tarixi sənətkarlıq ənənələrinə uyğun yaşadılması, həm də gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığının təmin edilməsi üçün mühüm amildir. Muxtar respublikanın ali təhsil müəssisələrində xalq yaradıcılığının müxtəlif sahələrinin təbliği məqsədilə stimullaşdırıcı tədbirlərin təşkili və tələbələrin bu istiqamətdə zəruri biliklərə yiyələnməsi üçün lazımi şəraitin yaradılması, öz növbəsində, xalça sənətinin də inkişafına təkan verir. İkinci rübdə Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələrinin birgə ərsəyə gətirdikləri xalça və tikmə nümunələrindən ibarət sərgi təşkil edilmişdir. Xovlu, xovsuz xalçalar, şəddə, vərni, kilim, cecim, duz torbası kimi növlərdə sərgilənən əl işlərində müxtəlif ornamentlər öz əksini tapmışdır. Həmçinin universitetin Elmi Şurasının 2021-ci il 30 aprel tarixli iclasında qəbul edilmiş Qərarla "Naxçıvan xalçaları və tikmələr" adlı dərs vəsaiti nəşr üçün tövsiyə olunmuşdur. Bununla yanaşı, Naxçıvan Müəllimlər İnstitutunda Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Axtarışlar" elmi jurnalının 2-ci sayında nəşr olunan "Rəngkarlıq və qrafika əsərlərində Azərbaycan xalçalarının təsviri" adlı elmi məqalənin 2021-2022-ci tədris ilində Naxçıvan xalçaçılıq sənəti adlı fənnin tədris planına salınması məqsədəuyğun hesab edilmişdir.



Dövlət proqramının icrası məqsədilə peşə təhsilinin təşkili ilə bağlı işlər davam etdirilmiş, mayın 24-də Ordubad Texniki Peşə və Sürücülük Məktəbində xalçaçı kursu fəaliyyətə başlamışdır. Avqustun 30-dək davam edəcək kursa 15 müdavim cəlb edilmişdir. İkinci rübdə Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində xalçaçılıq dərnəyinin fəaliyyətə başlaması ilə muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrində uşaqların yaradıcılıq qabiliyyətlərinin milli-mənəvi dəyərlərə uyğun genişləndirilməsi istiqamətində növbəti addım atılmışdır.

Bu dövrdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi tərəfindən xalçaçılıq irsinin təbliği və unudulmaqda olan ənənələrin bərpası üçün maarifləndirici tədbirlərin təşkili də diqqətdə saxlanılmışdır. Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Xalçaşünaslıq sektorunda Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin tələbələri üçün seminar təşkil olunmuşdur. İkinci rübdə bölmə əməkdaşlarının "Naxçıvan memarlıq abidələri və xalça nümunələri üzərindəki ornamentlərin oxşarlığı" və "Naxçıvanda toxuculuğun inkişafı" mövzusunda məqalələri çap edilmişdir.

Dövlət proqramının icrasının ilk illərində yaradılan əllə toxunmuş xalçaların reyestri sisteminə daxil edilmək üçün aprel-iyun aylarında 6 xalçanın pasportlaşdırılması istiqamətində iş aparılmışdır.

*Proqramda nəzərdə tutulan və icrası ikinci rübdə başa çatdırılan tədbirlər muxtar respublikada xalça sənətinin keyfiyyətcə yeni mərhələyə daxil olmasının daha bir ifadəsidir.*

**"Şərq qapısı"**

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi — 50*

# Görünməyənləri görünən edən rənglər dünyası

Uzun və mürəkkəb inkişaf yolu keçən müxtəlif sənət növləri birlikdə vəhdət təşkil edərək incəsənət tariximiz haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Qədimdən formalaşan milli sənətlərimiz arasında ümumbəşəri səciyyə daşıyan rəssamlıq da özünəməxsus yer tutur. Bu sənətin tarixi çox qədimdir. Ayrı-ayrı dövrlərdə diyarımızda çox qüdrətli rəssamlar yetişib və rəssamlıq məktəbləri yaradılıb. Deyərdik ki, Azərbaycan rəssamları heç bir mənada dünyanın adlı-sanlı rəssamlarından geridə qalmır, əksinə, öz yenilikləri ilə çoxlarından öndə gedir. Sevindirici haldır ki, muxtar respublikamızda rəssamlıq sənətinin inkişafı, rəssamların sosial rifahının yaxşılaşdırılması üçün dövlət səviyyəsində böyük tədbirlər görülür. Elə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun martın 2-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncam, yubileyin muxtar respublika rəhbərinin iştirakı ilə yüksək səviyyədə qeyd olunması da görülən işlərin davamıdır. Bu sənətin inkişaf etdirilməsi üçün ali təhsil ocaqlarında müvafiq ixtisaslar açılıb, tədris üçün hərtərəfli şərait yaradılıb. Yaradılan şərait gənclərimizin də rəssamlıq sənətinə marağını artırıb. Biz də Naxçıvan Müəllimlər İnstitutunda tələbələrinə rəngkarlığın sirlərini öyrədən və onlara bunu əyani şəkildə göstərən Rübabə İmamquliyeva ilə rəssamlıq sənətinin kiçik nüanslarından danışdıq.







Rübabə xanım qeyd etdi ki, bildiklərimi başqalarına öyrətmək mənə zövq verir. Bu mənada, tələbələrimin sevgisi, onların uğurları məni sevindirməklə yanaşı, işimə olan həvəsimi də artırır. Onların arasında özlərini doğruldan, gələcəyin rəssamları olacaq potensialda tələbələrimiz az deyil.

Müsahibim deyir ki, yaratdığım hər bir əsərə öz sevgimi qatıram. Bir əsəri bitirəndə çox sevinirəm, ancaq rənglər dünyasından da ayrılmaq istəmirəm. Rəssam müşahidə edən, sirli və sehrli təsvirlər yaradan bir insandır. Bizi əhatə edən ətraf aləmdə baş verən hadisələri, varlıqları təsvir etmək üçün, düşünürəm ki, yüksək müşahidə qabiliyyəti olmalıdır. Mənim üçün hər rəngin öz gözəlliyi var. Ona görə də bütün rənglər mənə doğma və əzizdir.

Həmsöhbətim onu da bildirdi ki, tələbələrinin çoxu özlərini dekorativ-tətbiqi sənətə daha yaxın hiss edirlər. Mən də əlimdən gəldiyi qədər həm rəssamlıq, həm də dekorativ-tətbiqi sənət yönümündən tələbələrə köməklik edirəm. Onu da qeyd etmək yerinə düşər ki, insanın ilk öncə istedadı olmalıdır. İstedad olduqdan sonra təhsil şərtdir, vacibdir. Diyarımızda gənc rəssamlar üçün hər cür şərait yaradılır. Etüdlər, sərgilər, beynəlxalq rəsm müsabiqələri təşkil olunur, gənc rəssamlar hər zaman önə çəkilir, onların bir sıra tədbirlərdə iştirakı təmin olunur.





Tənzilə İbadova institutun Təsviri incəsənət ixtisasında təhsil alan III kurs tələbəsidir. O deyir ki, incəsənətdən danışarkən, ilk növbədə, keçmişin dahi rəssamlarını fikirləşirəm. Çünki onların hər biri rəssamlığa öz töhfəsini verib. Həmin rəssamların yaradıcılıqları mənim sənət seçimimdə böyük rol oynayır. Peşəkar rəssam olmaq üçün çox işləmək lazımdır. Bu sənətin janrları arasında daha çox portret janrına müraciət edirəm. İnsanın üz cizgilərini çəkərkən onun daxili hisslərini, həyəcanlarını göstərməyə çalışıram. İnanıram ki, çox çalışsam, gələcəkdə böyük nailiyyətlər əldə edə biləcəyəm.

Təsviri incəsənət ixtisasının builki məzunu Abutalıb Həsənli ilə söhbət zamanı qeyd etdi ki, bu sənət sahəsi üzrə təhsil almağının əsas səbəblərindən biri dayısı Sabir Yusifzadənin çəkdiyi əsərlər olub: – Orta məktəbdə oxuduğum zaman yay tətillərində dayımgilə gedir, onun çəkdiyi əsərlərlə daha yaxından tanış olur, mən də öz balaca dünyama xas olan eskizlər çəkməyə çalışırdım. Rəssamlığa olan marağım məni Naxçıvan Müəllimlər İnstitutunda oxumağa, bu sahədə bacarığımı daha da təkmilləşdirməyə sövq etdi. Təhsil aldığım ocaqda bacarıqlı, istedadlı müəllimlərin, həmçinin rəsm çəkmək üçün hər bir avadanlığın olması, biz tələbələrin incəsənətin əsaslarını dərindən öyrənməyimizə böyük imkanlar açır.

Təranə Zaidova institutun II kurs tələbəsidir. Müsahibim bildirdi ki, rəssamlığa həvəsim uşaq yaşlarımdan yaranıb. Buna səbəb isə əmimin rəssam olmasıdır. İncəsənətə sevgim sonsuzdur, arzum özünü sənətdə tapan rəssam olmaqdır və bu yolda addım-addım irəliləyirəm. Janr olaraq kompozisiya işləməyə üstünlük verir, fərqliliyi sevirəm. Rəsm çəkərkən ətrafımdakı rənglərin, təbiətin, mənzərələrin gözəlliyi mənə həvəs verir. Qarşıma məqsəd qoymuşam ki, ixtisasım üzrə gələcəkdə müfəssəl biliklərə yiyələnim.

*Söhbətlərdən belə nəticəyə gəlirik ki, rəssamlıq sənətinin inkişafına göstərilən qayğı, yarıməsrlik tarixə malik Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fəaliyyətinin, istedadlı rəssamlarımızın əməyinin muxtar respublika rəhbəri tərəfindən yüksək qiymətləndirilməsi gələcəyin sənətkarları olacaq gənclərimizə böyük stimul verib. Muxtar respublikada gənc rəssamlarımıza yaradılan hər cür şərait bundan sonra da onların biliklərinin artırılmasında və fəaliyyətlərinin genişləndirilməsində, o cümlədən onların inkişafında mühüm rol oynayacaq.*

**Aytac CƏFƏRLİ**

Dövlət proqramı icra olunur

# Allahverən gücü(nü) istedadı ilə birləşdirən gənc(dir)

***Naxçıvanda idmanın inkişafı və kütləviliyinin təmin edilməsi üçün görülən məqsədyönlü tədbirlər, göstərilən hərtərəfli dövlət qayğısı nəticəsində gənc və yeniyetmələrin sağlamlığımız üçün vacib olan bu sahənin müxtəlif növlərinə marağı günü-gündən artmaqdadır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi yaradılan bütün idman federasiyaları ilə birgə fəaliyyət göstərir, bu sahədə dövlət siyasətinin tənzimlənməsini həyata keçirir. Məhz bunun nəticəsidir ki, diyarımızda müasir idman məktəbləri və idman qurğuları tikilib, ayrı-ayrı idman növləri üzrə 12 federasiya yaradılıb. Belə federasiyalardan biri də 2006-cı ildə yaradılan Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclərin bu sahəyə cəlb edilməsi üçün maddi-texniki baza möhkəmləndirilib, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib.***

### *Təsdiq edilən Dövlət proqramları*

Ümumiyyətlə, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası, onların reabilitasiyası və sosial adaptasiyasının təmin edilməsində diqqəti cəlb edən vasitələrdən biri məhz idmandır. Muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin də idmana cəlb olunması geniş mərhələni əhatə edib. Belə ki, Paralimpiya Federasiyasının rəsmi internet saytında paralimpiyaçı idmançıların vahid məlumat bazası formalaşdırılıb, şəhər və rayonlarda olan istedadlı idmançılar daim diqqətdə saxlanılır, onların yarışlarda iştirakı təmin edilir. Federasiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın və 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasını mütəmadi olaraq diqqətdə saxlayır və bu proqramların icrası istiqamətində fəaliyyətini davam etdirir.

Federasiyanın şəhər və rayonlardakı bölmələrində mütəmadi olaraq məşqlər təmin edilir, təsdiq edilən Dövlət proqramına uyğun olaraq işlər görülür. Şərur rayon bölməsində də fiziki imkanları məhdud idmançıların məşğulluq imkanları dəstəklənir. Hazırda bölmənin 65 idmançısı var ki, onlar idmanın 7 – stolüstü tennis, boccia, üzgüçülük, futzal, voleybol, ağırlıqqaldırma və qol güləşi növləri ilə məşğul olurlar. Son zamanlar bölmənin yetirmələri keçirilən şəhər və muxtar respublika birinciliklərində, turnirlərdə uğur qazanmaqda heç də digərlərindən geri qalmırlar. Bu idmançılardan biri də stolüstü tennis üzrə keçirilən yarışların dəfələrlə mükafatçısı və qalibi olan Allahverən Səfərovdur.

### *İlk turnir, ilk qələbə*

Paralimpiyaçı idmançılara "Kumirin hansı idmançıdır?" – sualını yönləndirdikdə, adətən, bir cavab alırır: "İlham Zəkiyev". Lakin bugünkü qəhrəmanımız bizim zənnimizi yanıltdı. Allahverən Səfərov idmana gec başlamasının səbəbini bir məqamla qeyd edir: "İlk olaraq idman sahəsində hansı sahəni seçəcəyimi götür-qoy etdim. Səbəbi isə bir çox növləri sevməyimdir. Uşaqlıqda futbolçu və ya voleybolçu olmağı arzulayırdım. Lakin sonradan stolüstü tennis marağımı daha çox cəlb etdi və oynamağa başladım. Hobbi olaraq başladığım idmanın əvvəlcə tarixini öyrəndim, kiçik nüansları belə, nəzərdən keçirdim. İlk dəfə 2016-cı ildən başlayaraq bu növdə yarış və turnirlərdə iştirak etdim və əksəriyyətində qalib idim və qazandım".



... Söhbətimizin bu anında məşqçi-müəllim Vüqar Paşayev maraqlı fikir söyləyir: "Stolüstü tennisdə ilk addımı atmaq böyük iradə, cəsarət tələb edir ki, bunun da öhdəsindən Allahverən artıqlaması ilə gəlib".

### *Məşqçi nəsihəti*

Bu gün 19 yaşında olan Allahverən Səfərov 14 yaşında öz istedadı ilə Vüqar Paşayevin diqqətini cəlb edib: "2016-cı ildə keçirilən yarışda Allahverən birinci oldu və onun soyuqqanlı olması diqqətimi cəlb etdi. Bu barədə federasiyaya məlumat verildi və qısa vaxt kəsiyində o, Paralimpiya Federasiyasının üzvü oldu. Bu müddət ərzində onunla hər gün məşqlər apardıq və bu sahədə püxtələşməsi üçün əlimizdən gələni əsirgəmədik. Demək olar ki, 2017-ci ildən onunla məşğul oluram və bir dəfə də olsun məşqlərə etinasız, məsuliyyətsiz yanaşmayıb. Məhz onun bu özgüvəni bütün yarışları qalib kimi başa vurması ilə nəticələnib. Hər zaman Allahverənə sözümüz o olur ki, "nə vaxtsa, məşqçin dəyişə bilər və yaxud başqa bir yerdə məşq edə bilərsən, amma bir şeyi unutma: məsuliyyət hər zaman idmanda ən önəmli faktordur".

### *Məsuliyyətli yanaşma və uğurlar*

Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılmasında "İstedadlı gənc" adına layiq görülən Allahverən Səfərovun qazandığı uğurlar çoxdur. Belə ki, dəfələrlə Şərur rayon birinciliyinin qalibi olan Allahverən stolüstü tennis üzrə keçirilən muxtar respublika birinciliyini də 5 dəfə qələbə ilə başa vurub. Naxçıvan Muxtar Respublika spartakiadasının da qalibi olan idmançımız Azərbaycan çempionatında da mübarizə aparıb. İlk dəfə qatıldığı birincilikdə qazandığı 4-cü yeri isə uğursuz nəticə saymaq olmaz. Bu, hələ növbəti yarışlar qabağı rəqiblərinə verilən bir "gözdağı" idi.

### *Davam edən məşqlər*

Vüqar Paşayevin 4 idmançısından biri olan Allahverən Səfərov hazırda ara vermədən məşqlərini davam etdirir. Pandemiya dövründə individual olaraq çalışan idmançının fikrincə, məlum pandemiya onun oyun təcrübəsinə az da olsa, təsir göstərib: "Ötən il federasiyanın keçirəcəyi bir çox yarışlarda iştirak edəcəkdim. Eyni zamanda Azərbaycan birinciliyində də mübarizə aparacaqdım. Lakin məlum pandemiyaya görə bütün yarışlar, turnirlər təxirə salındı. Təbii ki, bu biz idmançılara daha çox təsir etdi. Güclü məşqlərdən sonra yarışlarda iştirak etmək və qələbə qazanmaq istəyirsən, ancaq belə ara olduqda oyun təcrübən azalır. Düzdür, bu dövrdə məşqçilər, federasiya rəsmiləri bizimlə mütəmadi olaraq maraqlanırdı. Hazırda Şərur Rayon Gənclər və İdman İdarəsinin tennis zalında məşqlərimiz davam edir. Məşqlərə ciddi yanaşıb qarşıdakı yarışlarda uğurlarımı yeniləmək istəyirəm".

### *İdman, mütaliə və ya Allahverənin ürək sözləri*

İdman mənim yeganə işimdir və işimi çox sevirəm. Bununla yanaşı, həm də mütaliə etməyə böyük önəm verirəm. Pandemiya dövründə məşqlərlə yanaşı, daha çox kitab oxuyur, eyni zamanda qəbul imtahanlarına hazırlaşırdım. Nəticə olaraq, yüksək bal toplayıb, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul oldum. İdmana hər zaman muxtar respublikamızda qayğı ilə yanaşırlar. Məhz bunun nəticəsidir ki, biz idmançılar keçirilən bütün yarışlarda uğur qazanıb Naxçıvan idmanına az da olsa, töhfəmizi verməyə çalışırıq. Göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə idmançılar adından minnətdarlığımı bildirirəm.

### *Nəticə*

"İstedadlı gənc" adına layiq görülən 19 yaşlı Allahverən Səfərovu qarşıda uğurlu karyera gözləyir – bunu tam əminliklə deyə bilərik. Bəlkə də, gələcəyin olimpiya çempionu yetişir?! Səbəbi isə çox sadədir: məsuliyyət, ən əsası isə sağlamlıq imkanları məhdud insanların tibbi bərpası, onların reabilitasiyasına şəraitin yaradılması, bədən tərbiyəsi və idmana cəlb edilməsinin muxtar respublika rəhbəri tərəfindən daim diqqətdə saxlanılmasıdır.

### *Zəruri qeyd və yaxud təklif*

Hazırda həyata keçirilən Dövlət proqramları bir daha təsdiq edir ki, sağlamlıq imkanları məhdud insanların cəmiyyətin aktiv üzvünə çevrilmələri üçün muxtar diyarımızda hər bir şərait yaradılıb, bu kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyası, onların istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülüb. Federasiyalar idmançı bazalarını təkmilləşdirmək, daha təcrübəli idmançıları cəlb etmək üçün bir nüansdan da istifadə edə bilərlər. Bu, daha çox Paralimpiya və Atıcılıq federasiyaları üçün məqsədəuyğun addım ola bilər. Belə ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində misilsiz rol oynayan igidlərimizi – qazilərimizi federasiyalara dəvət etmək olar. Vətənpərvər ruhda böyüyən və müharibədə böyük şücaət göstərən gənclərimiz – qazilərimiz bundan sonra federasiyaların (xüsusilə atıcılıq) tərkibində idmançı kimi Naxçıvanı ən layiqli şəkildə təmsil edə bilərlər. Bu həm də sağlamlıqlarını Vətən uğrunda, qələbə naminə itirmiş cəsur gənclərin cəmiyyətə inteqrasiyasıdır.

**Ceyhun MƏMMƏDOV**

İdmançı və məşqçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və yeni biliklərə yiyələnməsi məqsədilə təcrübəli mütəxəssislərin muxtar respublikaya dəvət olunması məsələsi diqqətdə saxlanılır. Bu məqsədlə Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində sərbəst güləş növü ilə

## Güləşçilər üçün seminar



məşğul olan idmançılar üçün taktiki-texniki seminar təşkil olunub. Seminara gənclərdən ibarət milli komandanın məşqçisi, beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi Rövşən Hacıyev rəhbərlik edib. Tədbirdə paytaxt Naxçıvan və bölgələrdən, ümumilikdə, 60-a yaxın idmançı, o cümlədən məşqçilər iştirak ediblər.

Federasiyanın sədr müavini Faiq İsgəndərov idmançıları seminarın məqsəd və əhəmiyyəti barədə məlumatlandırıb. Hacı Əliyev kimi dünya miqyasında tanınan bir idmançının bu sahədə ilk addımlarını məhz Naxçıvan güləş məktəbində atdığını xatırladan Rövşən Hacıyev vurğulayıb ki, bu amil hər biriniz üçün ümid və inam qaynağı olmalıdır.

Çıxışların ardından məşq prosesinə başlanılıb. İsinmə hərəkətlərinin ardınca Rövşən Hacıyev sərbəst güləşçinin oyun zamanı və buna qədər hansı amillərə diqqət yetirəcəyi haqqında danışıb. Məşqçi və idmançıları maraqlandıran suallar təcrübəli mütəxəssis tərəfindən cavablandırılıb.

Qeyd edək ki, seminar Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyası tərəfindən birgə təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Vətən müharibəsi iştirakçıları, şəhid ailələri hərtərəfli diqqət və qayğı ilə əhatə olunurlar



Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsi iştirakçıları dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır, şəhid ailələri, müharibə veteranları hərtərəfli qayğı ilə əhatə olunurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə müvafiq kateqoriyadan olan muxtar respublika sakinlərinin sosial şəraiti yaxşılaşdırılır, onların mənzil və avtomobillərlə təminatı diqqət mərkəzində saxlanılır. Eyni zamanda Vətən müharibəsi iştirakçılarının tibbi və sosial reabilitasiya tədbirlərinə cəlb olunması, onlar üçün sosial dəstək tədbirlərinin icrası da davam etdirilir.

Görülən işlər çərçivəsində Naxçıvan şəhərində Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, yaralananlar və onların yaxınları, müharibədən zərərçəkənlərlə bağlı Psixoloji Dəstək Xidməti yaradılıb. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Regional İnformasiya Mərkəzində təşkil olunan xidmətdən hazırda 40-a yaxın müvafiq kateqoriyadan olan şəxs istifadə edir.

Qeyd edək ki, sözügedən xidmətə müraciətin daha da asanlaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytı – *sosial.nmr.az*-da "Şəhid ailələri və müharibədə yaralananlara psixoloji dəstək" adlı xüsusi bölmə *(http://sosial.nmr.az/psixidestek)* də istifadəyə verilib. Belə ki, Psixoloji Dəstək Xidmətindən yararlanmaq istəyən muxtar respublika sakinləri həmin bölməyə daxil olmaqla qeydiyyatdan keçə və ya 036-545-65-26 nömrəli əlaqə telefonu vasitəsilə müraciət edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə hansı qaydada verilir?*

**Cavab:** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 30 gün qalmış bu barədə icazə alınması üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ödədiyi dövlət rüsumunun məbləğinə müvafiq olaraq qanunda nəzərdə tutulmuş müddətdə baxılır.

Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddətinin uzadılması icazənin verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya sahəsini əhatə edən və bu sahədə maraqdoğuran müxtəlif mövzularla bağlı suallarını Dövlət Miqrasiya Xidmətinin **"202"** Miqrasiya Məlumat Mərkəzinə, *miqrasiya.nakhchivan.az* saytının əlaqə bölməsinə və ya Xidmətin rəsmi "Facebook" (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti) və "Instagram" *(nmr_miqrasiya_xidmeti)* sosial şəbəkələrinə ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

### *İtmişdir*

Məmmədov Səfər Səmimi oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır

***

Əhmədov Vaqif Hüseyn oğlunun adına olan 464196 seriya nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Vüsal Telman oğlunun adına olan MN-0057836 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Abbasov Əhməd Qurbanəli oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 637